*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 8 mart 2019-cu il № 19 (2336) Qiyməti 30 qəpik


## 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına təbrik



Hörmətli xanımlar!

Sizi - bütün Azərbaycan qadınlarını Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Milli varlığımızın ifadəsi olan zəngin mədəni-mənəvi irsimizin, ana dilimizin və adət-ənənələrimizin əsrlərdən bəri qorunub saxlanmasında Azərbaycan qadınlarının müstəsna xidməti vardır. Tariximizin mürəkkəb sosial-siyasi dəyişikliklərlə müşayiət olunduğu dövrlərdə onlar cəmiyyətin sarsılmaz mənəvi dayağına çevrilmişlər. XX yüzilliyin ilk onilliklərində, bəzi qabaqcıl ölkələrin qadınlarından daha əvvəl seçki hüququ qazanaraq ictimai və mədəni həyatın müxtəlif sahələrində fəal iştirak etmələri onların gələcək uğurlarının da rəhni olmuşdur. Qürurverici haldır ki, müsəlman Şərqində qadınlar arasında incəsənətin, elmin və texnikanın bir çox sahələri üzrə ilk addımı məhz mənəviyyatında milliliklə müasirliyin əsl vəhdətini yaratmış Azərbaycan qadını atmışdır.

Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq son yüz ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərmiş və nailiyyətlərlə dolu parlaq bir yol keçmişlər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsi və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynamış, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsi olub, müasir həyatımızın ən əlamətdar hadisələrindəndir.

Əminəm ki, siz Azərbaycan xanımları ailə dəyərlərimizin bundan sonra da layiqincə yaşadılmasına çalışacaq, gənc nəslin Vətənə, torpağa məhəbbət, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək, ölkəmizin davamlı yüksəlişi naminə töhfələrinizi əsirgəməyəcəksiniz.

Hamınıza cansağlığı, səadət və işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 6 mart 2019-cu il.

## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldini qəbul edib.*

*Dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi və digər sahələrdə çoxşaxəli əlaqələrin mövcud olduğunu qeyd edərək, yüksək səviyyədə həyata keçirilən səfərlərin önəmini vurğuladı.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

*Dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin sədri seçilməsi münasibətilə Mustafa Şentopu təbrik etdi və onun bu statusda ilk səfərini Azərbaycana etməsinin məmnunluq doğurduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan və Türkiyə arasında ilk yüksək səviyyəli səfərlərin qarşılıqlı şəkildə həyata keçirilməsi adət-ənənə xarakteri daşıyır və bu, iki ölkənin qardaşlığının və dostluğunun bariz nümunəsidir. Dövlətimizin başçısı bu baxımdan keçən il Bakının azad olunmasının 100 illiyi münasibətilə keçirilən paradda Azərbaycan və Türkiyə hərbçilərinin çiyin-çiyinə birgə yürüşünü xatırlatdı.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*

*Prezident İlham Əliyev Avropa İttifaqı Komissiyasının rəhbərliyi və bir sıra komissarlarının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq əsasında həll edilməsi, mövcud status-kvonun qeyri-dayanıqlı olması, danışıqların mövcud format əsasında davam etdirilməsi və danışıqlara qeyd-şərt qoyulmasının qəbuledilməzliyi barədə ictimai açıqlamalarının məmnunluq doğurduğunu və Azərbaycanın bunu dəstəklədiyini bildirdi.*

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycanın Müdafiə naziri Böyük Britaniyanın Müdafiə Nazirliyinin nümayəndə heyəti ilə görüşüb



*Martın 6-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı Müdafiə Nazirliyinin beynəlxalq təhlükəsizlik siyasəti üzrə direktoru Nik Qurrun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Azərbaycan və Böyük Britaniya Müdafiə nazirlikləri arasında növbəti qərargah danışıqlarının keçirilməsinə dair məsələlərin əsas müzakirə mövzusu olduğu görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığa dair geniş fikir mübadiləsi aparılıb.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik Zakir Həsənov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə ciddi təhdid təşkil etdiyini, münaqişənin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini qonaqların diqqətinə çatdırıb.

Azərbaycanın NATO-nun Əfqanıstanda həyata keçirdiyi missiyada iştirakını yüksək qiymətləndirən qonaq vurğulayıb ki, Böyük Britaniya ölkəmiz ilə hərbi əlaqələrin daha da möhkəmləndirilməsində maraqlıdır.

N.Qurr xüsusi qeyd edib ki, Böyük Britaniya Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımaqla yanaşı, Dağlıq Qarabağ münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında, beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinin tərəfdarıdır.

Görüşdə, həmçinin regional, dəniz, enerji resurslarının təhlükəsizliyi, terrorizmə qarşı birgə mübarizə və digər məsələlər müzakirə edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,
foto
Natiq İSAYEVİNDİR**

# 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Əziz xanımlar!

Sizi 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edir, hər birinizə ən xoş arzularımı bildirirəm.

Azərbaycan qadını tarix boyu müqəddəs ana adını uca tutmaqla müdrikliyi, işgüzarlığı, saflığı və mübarizliyi ilə keçmişimizə parlaq səhifələr yazmışdır. Ölkəmizin ictimai-siyasi, mədəni həyatında fəal iştirak etmiş, Vətənin müdafiəsində və dövlətin idarə olunmasında fədakarlıq nümayiş etdirməklə yanaşı, döyüşlərdə şücaət göstərmişdir.

Ötən il 100 illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyətinin ilk qərarlarından - qadınlara seçmək və seçilmək hüququnun verilməsi cəmiyyətimizdə onlara xüsusi hörmət və ehtiramın təzahürüdür. Dövlət müstəqilliyimizin bərpasından sonra da Azərbaycan qadınının milli dövlət quruculuğu prosesində, ölkəmizin sosial-iqtisadi və mədəni potensialının artırılmasında fəal iştirakı onun intellektual səviyyəsinin yüksək olmasının bariz nümunəsidir.

Dağlıq Qarabağda, Ermənistanla həmsərhəd rayonlarda gedən döyüşlərdə qadınlar da iştirak etmişdir. Vətən uğrunda neçə qadın şəhid olmuş, 2 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Azərbaycan qadını gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması və onların xalqa, cəmiyyətə layiqli övlad kimi formalaşmasında da əsl vətəndaş kimi çalışır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə milli maraqlarımıza xidmət edən və ənənələrimizi yaşadan çoxlu sayda böyük layihələrin uğurla icra olunmasında, eləcə də ölkəmizin müdafiə qüdrətinin artırılmasında və ərazi bütövlüyümüzün bərpa edilməsində Azərbaycan qadını da yaxından iştirak edir. Mərhəməti və xeyirxahlığı, zəngin mənəvi-intellektual səviyyəsi ilə fərqlənən qadınlarımız ordu quruculuğunda da yaxından iştirak edirlər. Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən yüzlərlə qadın Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirir. Mülki işlərdə çalışan qadınlarımızın da əməyi yüksək qiymətləndirilir.

Azərbaycanın suverenliyi, torpaqlarımızın müdafiəsi zamanı şəhid olmuş qadınlarımızın əziz xatirəsini ehtiramla yad edir, şəhid analarına, ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə sağlamlığını itirən hərbi qulluqçuların ömür-gün yoldaşlarına, əsgər analarına bayram təbriklərimi çatdırır, yüksək hörmət və ehtiramımı bildirirəm.

İnanıram ki, bütün qadınlar kimi, ordu quruculuğunda xidmət edən və mülki işlərdə çalışan qadınlar bundan sonra da ölkə rəhbərliyinin etimadını doğruldacaq, göstərilən diqqət və qayğıya cavab olaraq Vətənə, xalqa, dövlətə sədaqət göstərəcəklər.

Bayramınız mübarək, əziz xanımlar!

**General-polkovnik
Zakir HƏSƏNOV
Azərbaycan Respublikasının
Müdafiə naziri**




# Azərbaycan ilə Böyük Britaniya arasında hərbi əməkdaşlıq planı imzalanıb

*Martın 6-da Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikası və Böyük Britaniya Müdafiə nazirlikləri arasında Qərargah danışıqları keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə ölkələrimiz arasında müdafiə sahəsində əməkdaşlığın mövcud vəziyyəti, perspektiv istiqamətləri nəzərdən keçirilib, təlim, təhsil, sülhməramlı əməliyyatlar üzrə əməkdaşlıq, eləcə də regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Danışıqların yekunu olaraq "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Birləşmiş Krallığın Müdafiə Nazirliyi arasında 2019-2020-ci maliyyə ili üçün hərbi əməkdaşlıq Planı" imzalanıb.

# Xarici İşlər Nazirliyində Silahlı Qüvvələrin Hərbi Akademiyasının dinləyiciləri ilə praktiki məşğələ keçirilib

*Silahlı Qüvvələrin Hərbi Akademiyasının Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik Kursunun tədris proqramı çərçivəsində kursda təhsil alan dövlət orqanlarının yüksək vəzifəli qulluqçuları ilə Xarici İşlər Nazirliyində praktiki məşğələ keçirilib.*



Praktiki məşğələ zamanı Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva tərəfindən nazirliyin konfrans zalında dinləyicilərə brifinq verilib.

Brifinq zamanı Xarici İşlər Nazirliyinin yaranma tarixi, strukturu, vəzifə və tapşırıqları, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən müəyyən edilmiş xarici siyasət prioritetləri, bu sahədə dövlət başçısının tapşırıq və tələmatları, son illər ərzində Azərbaycan Respublikasının müstəqil çoxistiqamətli, milli maraqlara əsaslanan xarici siyasəti, Azərbaycan Respublikasının xarici dövlətlərdə fəaliyyət göstərən diplomatik xidmət orqanlarının - səfirliklərin, konsulluqların və beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliklərin fəaliyyəti haqqında dinləyicilərə geniş məlumat verilib. Sonra dinləyiciləri maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

Praktiki məşğələnin gedişində akademik kursun dinləyiciləri Xarici İşlər Nazirliyinin Heydər Əliyev guşəsini ziyarət edib. Sonda ümummilli lider Heydər Əliyevin büstü önündə xatirə şəkli çəkdirilib.

**"Azərbaycan Ordusu"**

# Beynəlxalq Qadınlar Gününə həsr olunmuş bayram tədbiri keçirildi





*Azərbaycan qadını zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında qadınlarımızın böyük rolu olub. Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər.*

Bu gün müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Müasir Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmurudur.

Ulu öndər Heydər Əliyevin qətiyyətli addımları nəticəsində 1993-cü ildən qadınların ictimai-siyasi həyata daha fəal transformasiyası, onların dövlət idarəçiliyində təmsilçiliyi, bütün sahələrdə kişilərlə bərabər hüquqlara malik olması dövlət idarəçiliyi kursunun prioritet istiqamətlərindən birinə çevrilib. Ulu öndər Heydər Əliyevin Azərbaycan qadını ilə bağlı fikirləri olduqca qiymətlidir: "Azərbaycan xalqı həmişə qadına, onun cəmiyyətin həyatında oynadığı rola, tutduğu yüksək mövqeyə böyük hörmətlə yanaşmışdır. Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi Vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur".



Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Müdafiə Nazirliyi sistemində çalışan hərbi və mülki qulluqçu qadınların iştirakı ilə 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş bayram tədbiri keçirildi.

Ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tədbir iştirakçılarına 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbriki oxundu.

İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev müasir həyatımızda Azərbaycan qadınının fəallığı ilə diqqət mərkəzində olmasından, respublikanın bütün sahələrində qadınlarımızın təmsil olunmasından söz açdı. Vurğuladı ki, elə bir sahə yoxdur ki, orada Azərbaycan qadınının səsi eşidilməsin, onun fəaliyyəti şaxələnməsin. "Azərbaycan qadını istər döyüş meydanında, istərsə də ən yüksək beynəlxalq tribunalarda sözünü deməyə qadirdir. Bunun əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Dahi öndər Heydər Əliyev tərəfindən Azərbaycan qadınına olan diqqət və qayğı hər kəsin gözü qarşısında baş vermişdir. Onun qadına verdiyi qiymət, Azərbaycan qadını haqqında ifadə etdiyi səmimi tarixi fikirlər heç bir qadının yaddaşından silinə bilməz. Ümummilli Liderin bir fikrini xatırlayıram: "Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz, həyat ola bilməz. Azərbaycanda qadınlar da öz ağıllarına, zəkalarına, biliklərinə, istedadlarına görə dünya qadınları içərisində özünəməxsus yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik".

General-mayor Rasim Əliyev çıxışının sonunda bir daha xanımları təbrik edərək onlara ailə səadəti, qadın xoşbəxtliyi və işlərində uğurlar arzuladı.

Bayram tədbiri Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin təşkil etdiyi proqramla və respublikamızın tanınmış mədəniyyət və incəsənət nümayəndələrinin ifasında rəngarəng mahnılarla başa çatdı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# ATƏT-in fəaliyyətdə olan sədri: Azərbaycan ATƏT-in vacib üzv dövlətlərindən biridir

Martın 5-də Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın Xarici İşlər və Avropa naziri Miroslav Layçak ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdən sonra birgə mətbuat konfransı keçirilib.

Xarici İşlər naziri Elmar Məmmədyarov qeyd edib ki, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair səmərəli müzakirələr aparılıb. Ermənistanın milli təhlükəsizlik xidmətinin sədri Artur Vanetsyanın bəyanatlarına münasibət bildirən nazir Elmar Məmmədyarov Ermənistan rəhbərliyinin son vaxtlar belə bəyanatlar səsləndirdiklərini və bunun danışıqlar prosesinə mənfi təsir etdiyini vurğulayaraq deyib: "Azərbaycan münaqişənin beynəlxalq hüququn normaları çərçivəsində sülh yolu ilə həlli üçün böyük səylər göstərir. Ermənistan tərəfindən verilən bəyanatlar isə heç də sülh vəd etmir".

Münaqişə başlayandan bəri erməni xalqının ancaq əziyyətlərə, məhrumiyyətlərə düçar olduğunu, demoqrafik, siyasi və iqtisadi problemlərlə üzləşdiyini bildirən nazir problemin həllinin vacibliyini vurğulayıb. O deyib: "Həmsədrlər də, Azərbaycan da eyni mövqedən çıxış edib status-kvonun saxlanılmasının yolverilməz olduğunu bildirirlər. Azərbaycan münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarıdır və bu sahədə fəaliyyətini davam etdirir".

Nazir bu yaxınlarda bölgədə sabitliyin və dayanıqlı inkişafın dəstəklənməsi istiqamətində Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan arasında iqtisadi əməkdaşlığı daha da möhkəmləndirmək və genişləndirmək məqsədilə Buxarestdə xarici işlər nazirlərinin iştirakı ilə xüsusi görüşün təşkil edildiyini və orada geniş müzakirələr aparıldığını da bildirib.

Mətbuat konfransında Miroslav Layçak ATƏT-in sədri kimi Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayıb. Slovakiya ilə Azərbaycan arasında əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində işlərin görüldüyünü bildirən nazir bu yaxınlarda Bakıda səfirlik açmağa qərar verdiklərini vurğulayıb. M.Layçak ATƏT-dəki sədrliyi dövründə prioritetlərdən birinin məhz münaqişələrin həlli olduğunu bildirib. ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin həllinə davamlı dəstəyini vurğulayan M.Layçak təşkilatın bundan sonra da bu istiqamətdə fəaliyyətini davam etdirmək əzmində olduğunu deyib. Qeyd edib ki, indiyə qədər prezidentlər və nazirlər səviyyəsində çoxlu müzakirələr aparılıb. Bu iş davam etdirilməlidir.

M.Layçak ATƏT-in Azərbaycanla əməkdaşlığa xüsusi önəm verdiyini bildirərək deyib: "Azərbaycan ATƏT-in vacib üzv dövlətlərindən biridir. ATƏT-in Azərbaycanla əməkdaşlığının daha da möhkəmləndirilməsi üçün müxtəlif məsələləri müzakirə etdik".

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

__*6 mart 2019-cu il.*__

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şirvanlı, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

__*7 mart 2019-cu il.*__

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı, Aşağı Əskipara, Qızılhacılı kəndlərində, Berd rayonunun Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Bayramınız mübarək, əziz qadınlarımız!

*Dövlətimizin diqqət və qayğısı sayəsində cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirak edən qadınlarımızın Azərbaycan cəmiyyətində rolu böyükdür. Vətənpərvərlik ali, müqəddəs duyğudur, insanın cəmiyyətdə tutduğu mövqe məhz onun vətənpərvərliyi ilə müəyyənləşdirilir. Vətənpərvərlik insana qəhrəmanlıq, fədakarlıq, məğlubedilməzlik, torpağa, xalqa, dövlətə sevgi, hədəflərə inam aşılayır. Hərbçi qadınlarımızı bu peşəyə məhz bu ali, bu müqəddəs duyğular gətirib. Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən yüzlərlə qadın Vətən qarşısında vəzifə borclarını şərəflə yerinə yetirir. Onların hərbi xidmətə nümunəvi münasibəti təqdirəlayiqdir. Qadın hərbi qulluqçular, mülki vəzifələrdə işləyən qadınlar da torpaqlarımızın işğaldan azad ediləcəyi günün intizarındadırlar. Arzu edirik ki, gələn 8 Mart Beynəlxalq Qadınlar Günündə qəzetimizdə dərc edəcəyimiz məqalələri işğaldan azad edilən torpaqlarımızda xidmət edəcək əsgər və zabitlərimizin təbriki ilə tamamlayaq!*





Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində olduğumuz zaman müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Gülnarə İsmayılova ilə tanış olduq. Hərb sənətinə sonsuz sevgi ilə yanaşan qadın hərbi qulluqçu bildirdi ki, özünü dərk edəndən düşmənə nifrət edib və hər zaman hərbçi olmaq, Vətəninin müdafiəsində dayanmaq istəyib. Həmin istəyin nəticəsidir ki, artıq bir neçə ildir telefonçu vəzifəsində xidmət edir. Söhbət əsnasında G.İsmayılova 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan xanımlarını təbrik etdi:

- Siz cəmiyyətin hər anında önəmli yer tutursunuz. Azərbaycan qadını olaraq hər zaman dünyaya nümunə olmusunuz. Ölkəmiz tarix boyunca uzun yollar keçmiş və zamanın tələblərindən asılı olaraq bir çox əlamətdar günlər təqvimimizdən silinmişdir. Lakin 8 mart heç zaman silinməyəcək şəkildə qalır. Çünki bu gün cəmiyyətimizin əziz parçası olan xanımlarımızın günüdür. Bu gün münasibətilə bütün Azərbaycan xanımlarını səmimi qəlbdən təbrik edirəm. Sizə hər zaman qayğı, gözəllik, zəriflik və təbəssüm arzu edirəm. Həyatınız hər zaman sevgi ilə dolu olsun.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Səbinə Məmmədova da düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində operator vəzifəsində xidmət edir. O da öz növbəsində bütün Azərbaycan xanımlarını qarşıdan gələn bayram münasibətilə səmimi qəlbdən təbrik etdi:

- Əziz xanımlarımız, analarımız və bacılarımız. Sizi, 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə səmimi qəlbdən təbrik edirəm, hər birinizə cansağlığı, ailə səadəti və işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Tarixə nəzər salsaq görərik ki, Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların bir çoxunun adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb. Bu gün müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Azərbaycan xanımı dünyanın ən gözəl nemətlərinə layiq olmağı haqq edən qadındır. Allah hər zaman sizləri sevindirsin. Hər birinizi öpüb, bağrıma basıram.



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Aynurə Məstəliyeva da təbriklərə qoşularaq hər bir Azərbaycan xanımını bayram münasibətilə təbrik etdi, onlara işlərində müvəffəqiyyətlər, ailə səadəti və ən əsası cansağlığı arzu etdi. "Sürətlə maariflənən qadınlarımız yüzillərdən bəri formalaşmış milli dəyərlərə sadiq qalmaqla ana dilimizin, mədəniyyətimizin və mənəviyyatımızın ən etibarlı dayağı olmuşlar. Azərbaycan xanımları öz dərin zəkaları və tükənməz daxili potensialları ilə bu gün də xalqa və cəmiyyətə fədakarcasına xidmət edirlər. Əziz xanımlarımız, arzu edirəm ki, qəlbinizdən sevinc, sevgi, səadət heç vaxt əskik olmasın."

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

---

Həyatımızın bütün sahələrində əvəzsiz rolu olan qadınlarımız böyük hörmət və ehtirama layiqdirlər. Onlar təhsil, elm, mədəniyyət və incəsənət sahələrində böyük uğurlara imza atırlar. Elə bir sahə yoxdur ki, orada qadınlarımızın zəhməti hiss olunmasın. Tarix boyu Vətənimizin çətin və ağır günlərində də qadınlar kişilərlə yanaşı, çiyin-çiyinə çalışmışlar.

Azərbaycan Ordusunda da qadın hərbi qulluqçularımız, mülki vəzifələrdə çalışanlar Vətənə layiqli xidmətləri ilə seçilirlər. Bizimlə birgə xidmət edən qadınlar zərif çiyinlərinə düşən məsuliyyətin öhdəsindən layiqincə gəlirlər. 8 Mart Beynəlxalq Qadınlar Günü ərəfəsində "N" hərbi hissəsində onların bir qrupu ilə görüşüb söhbət etdik, ürək sözlərini dinlədik.

Ordumuzun bütün bölmələrində uğurlu xidmətləri ilə yadda qalan qadınların döyüş vəziyyətində də əməyi az olmayıb. Belə fədakar qadın hərbi qulluqçularımızdan tibb bacılarını misal göstərmək olar ki, onlar müharibə şəraitində kişilərlə yanaşı barıt qoxulu səngərlərdə olur, hər bir döyüşçünün yaddaşında ağ xalatlı xilaskar kimi qalır. Uzağa getməyək, aprel döyüşləri bunun sübutudur. Tibb işçilərimiz, xüsusilə qadın qulluqçularımız istər səngərlərdə, istərsə də səhra hospitallarında vəzifələrini layiqincə yerinə yetirirdilər. Zərif xanımlarımız, ağ xalatlı cəngavər idilər sanki. İncə ruhlarına cəsarət hakim olmuşdu, odun-alovun içinə atılır, yaralı aslanlarımızı təxliyə etmək, ilkin tibbi yardım göstərmək üçün qorxmadan çalışırdılar. Onların bir çoxu bu gün də hərbi tibb müəssisələrində xidmət edərək vətəndaşlıq borcunun məsuliyyətini dərk edirlər.

İlk həmsöhbətim kiçik çavuş Cəvahil Qazaxovadır. Cərra-



hiyyə şöbəsinin baş tibb bacısı vəzifəsində xidmət edən hərbi qulluqçumuzla görüşümüz iş prosesinə təsadüf etdi. Sarğı otağında əsgərin ayağına sarğı qoyurdu. Onun nəzakətlə, qayğıyla və gülərüzlə xidmət etməsinin şahidi oluruq. Hiss olunur ki, işinə sevgi ilə yanaşır. Beş ilə yaxındır ordu sıralarında şərəfli xidmət yolu keçdiyini bildirən Cəvahil bayram münasibətilə təbrik sözlərini də dilə gətirir: "Hərbi forma daşımaq kişilərimiz kimi bizim üçün də qürurludur. Şərəfli peşə sahiblərindən olduğum üçün sevincliyəm. Biz tarix boyu igidlərimizin qəhrəmanlığı ilə öyünmüşük, bu gün şanlı ordumuzda, mərd oğullarımızla bir sırada Vətənə xidmət etməkdən qürur hissi keçiririk. Mən də öz adımdan bütün xanımlarını təbrik edirəm. Hər yaşlarında sevgi, hörmət və qayğı ilə əhatə olunsunlar, daim sevib-sevilsinlər".

Biz də öz növbəmizdə Cəvahil xanımı təbrik edib, şərəfli işində uğurlar arzulayır, xoş təəssüratla ayrılırıq.

Növbəti həmsöhbətimizlə müayinə otağında görüşürük. Kiçik çavuş Rəna Əliyeva da öz fəallığı ilə seçilən, vəzifələrinin öhdəsindən bacarıqla gələn qadın hərbi qulluqçularımızdandır. Seçdiyi peşə ilə o da qürurlanır. Əsgərlərimizin sağlamlığının keşiyində dayanmağı müqəddəs iş bilir. "Əsgər balalarımız torpaqlarımızı qoruyurlar, xalqımız firavan, düşmən təhlükəsi olmadan rahat yaşasın deyə gecəgündüz Vətənin müdafiəsində dayanırlar. Onların sağlamlığının qeydinə qalmaq, əsgərlərimizi mövsümlə əlaqəli yoluxucu xəstəliklərdən qorumaq kimi vacib iş bizim üzərimizə düşür. Bu işdən hər birimiz fərəhlənir, vəzifələrimizin öhdəsindən uğurla gəlirik. Onları öz övladlarımızdan ayırmır, daim qayğı ilə yanaşırıq. Bayram münasibətilə hər birinin analarını, bacılarını, yoldaşlarını səmimi qəlbdən təbrik edirəm. Bütün xanımlara əsl qadın xoşbəxtliyi arzulayıram. Hər zaman gözəl, təravətli, sevgi dolu olmalarını diləyirəm. Üzlərindən gülüş, qəlblərindən məhəbbət əskik olmasın. Mən istər ailədə, istərsə də iş kollektivində olan kişilərimizə minnətdarlıq bildirmək istəyirəm ki, biz qadınlara daim diqqət göstərir, qayğı ilə yanaşırlar. Bu cəhətdən Azərbaycan qadını şanslı və xoşbəxtdir ki, ona hər an dəyər verildiyini hiss edir. Cəmiyyətimizdə qadına, anaya, bacıya olan rəğbət bizləri hər zaman sevindi-



rir, könül xoşluğu aşılayır. Xanımlara belə yüksək hörmət qoyulan bir ölkənin vətəndaşı olan hər bir qadın üçün təkcə 8 mart yox, elə hər gün bayramdır", - deyə kiçik çavuş Rəna Əliyeva bildirdi.

- İyirmi dörd ildir hərbi tibb sahəsində çalışıram, - deyən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Afət Yusifova şərəfli ömür xatirələrini bölüşdü. "Bilirsiniz, müharibə başlayanda ordumuz yeni yaranırdı, cəbhə bölgələrində yaralılara tibbi xidmət göstərmək üçün qadınlara böyük ehtiyac vardı. Vətən torpaqlarının keşiyində dayanıb, mənfur düşmənlərlə döyüşən mərd oğullarımıza köməklik etməyi özümə mənəvi borc bilib ordu sıralarına qatıldım. Hər zaman çalışıram ki, döyüşçü qardaşlarıma lazımi tibbi yardım göstərə bilim. Hər döyüşçünün sağlamlığını dəyişərkən orduya bağlılığım daha da artır. Əsgərlərimizlə çiyin-çiyinə Vətənimizə xidmət etməyimlə qürur duyuram. Qarşıdan gələn 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə ana və bacılarımızı təbrik edirəm. Azərbaycanda qadına həmişə xüsusi münasibət, xüsusi hörmət olub. Bu gün bizim günümüzdü. Əziz, mehriban xanımlarımızı, başda analarımız olmaqla, hər birini təbrik edirəm. Tanrıdan onlara diləyim uzun ömür, cansağlığıdır. Daima üzlərindən təbəssüm əskik olmasın. Yaşadıqları hər gün xoşbəxt olsunlar. Çünki hər bir Azərbaycan xanımı buna layiqdir."

**(Ardı 5-ci səhifədə)**

# Bayramınız mübarək, əziz qadınlarımız!

(Əvvəli 4-cü səhifədə)

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Küşvər Səmədova beş ildən artıqdır ki, düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində operator vəzifəsində xidmət edir. Küşvər xanım ürəyindəki sevgiylə bu sahəyə üz tutub. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kurs keçərək forma geyinmək arzusuna çatıb. O bildirdi ki, son illər orduda qadınların xidmətə başlamasına şərait yaradılması hərbçi sənətini sevən, bu sahədə xidmət etmək arzusunda olan qadınları çox sevindirdi. "Bu imkan mənim kimi xidmət etmək istəyən xeyli qadını sevindirdi. Hərbi formanı əynimə geyindiyim sevincli günümü bütün sevdiklərimlə, dostlarımla paylaşdım. O anlarda keçirdiyin hissləri sözlə ifadə etmək mümkün deyil. Bunu anlamaq üçün gərək o hissləri yaşayasan. Doğma torpaqlarımızın bir qisminin işğal altında olduğu bir dövrdə üzərimizə düşən vəzifəni şərəflə yerinə yetiririk. Torpaqlarımızın işğalda olması mənim də ürəyimi sızladır. Xidmətdə olduğum illər ərzində dövlətimizin orduya diqqət və qayğısının, ordumuzda aparılan uğurlu islahatların səmərəli nəticə verdiyinin şahidiyəm. Yaxın gələcəkdə ordumuzun bizləri qələbə xəbəri ilə müjdələyəcəyinə inanıram". Küşvər xanım 8 Mart Beynəlxalq Qadınlar Günündən danışaraq onu da bildirdi ki, müstəqil Azərbaycan dövlətçiliyinin əsasını qoyan ümummilli lider Heydər Əliyev qadın şəxsiyyətinə böyük hörmətlə yanaşırdı.



- Ulu Öndər ölkə həyatının bütün sahələrində qadınlara xüsusi yer ayırdı, onların hərtərəfli fəaliyyətinə geniş meydan verdi, lider qadınlar yetişdirdi. Bu gün dövlət siyasətinin Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilməsi sayəsində Azərbaycan qadınının cəmiyyətdə yeri və nüfuzu daha da artıb. Qarşıdan gələn gözəl bayram münasibətilə bütün qadınlarımızı səmimi qəlbdən təbrik edir, onlara uzun ömür, cansağlığı arzulayıram. Azərbaycan qadını ən xoş sözlərə layiqdir!

Atalar yaxşı deyib, qadın gülərsə, dünya gülər. Arzu edirəm ki, heç zaman gülüş üzünüzdən əskik olmasın, əziz xanımlar!



**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

---

On səkkiz ildən çoxdur ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə fizika müəllimi işləyən Nərgiz Məmmədova da yaxşı əməlinə, zəngin təcrübəsinə görə minnətdarlıq qazanan insanlardandır. Bu illər ərzində yüzlərlə, minlərlə kursanta dərs deyən, bilik öyrədən Nərgiz xanım bu gün yenə də fəaliyyətini eyni şövqlə, eyni ovqatla davam etdirir. Gələcəyimizin zabitlərinə elm öyrədir, sabahkı günlərdə inamlı addımlar atmaq üçün onlara düzgün yol göstərir, vaxtında dəyərli məsləhət və tövsiyələr verir.



Söhbətimiz zamanı öyrəndim ki, Nərgiz Məmmədova ölkəmizin dilbər guşəsi olan Qəbələ rayonunun Vəndam kəndində dünyaya göz açıb. Orta təhsilini başa vurduqdan sonra Bakı Dövlət Universitetinə üz tutub. 1988-ci ildə bu təhsil ocağını bitirdikdən sonra C.Naxçıvanski adına Hərbi Liseydə müəllim kimi fəaliyyətə başlayıb.

- İllər sanki tez ötüb keçdi, - deyə Nərgiz Məmmədova sözə başladı. - Sanki ilk dəfə əlimə jurnal alıb sinfin qapısını açdığım gün dünən olmuşdu. Bu illər ərzində neçə-neçə kursanta dərs demişəm, fizikanın sirlərini öyrətmişəm. Hər dəfə kursantlara, gələcəyimizin zabitlərinə dərs deyəndə qürur hissi keçirirəm. Fəxr edirəm ki, ordumuzun gələcək zabitlərinin hazırlanmasında az da olsa mən də bir iş görürəm. Ən müasir tədris metodlarını tətbiq edərək çalışıram ki, fizikanın sirlərini onlara sevdirə-sevdirə öyrədim. Ömrümün on səkkiz ilini müəllimlik peşəsinə, kursantlara bilikləri öyrətməyə sərf etmişəm. Mən kursantlarımıza təkcə elmi deyil, həm də həyatı, gələcəyi də öyrətməyə çalışıram. Çünki həyatla elm qoşa qanaddır, bir-birini tamamlayır. Kursantlar bunların ikisini də eyni vaxtda öyrənsələr, gələcəklərini daha tez və asan quracaqlar. Bu gün qarşımızda dayanan əsas vəzifə ordumuz üçün bilikli, savadlı və vətənpərvər zabitlər hazırlamaqdır.

Nərgiz Məmmədova 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə bütün Azərbaycan qadınlarını da təbrik etdi.

"Azərbaycan qadınının ictimai-siyasi həyatdakı tutduğu mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir. Respublikamızda bərqərar olan demokratik mühit ölkə qadınlarının zəngin potensialının gerçəkləşdirilməsi üçün əlverişli zəmin yaradır. Azərbaycan dövlətinin qadınlarla bağlı həyata keçirdiyi siyasət hər cür ayrı-seçkiliyi aradan qaldıraraq qadınların bərabər hüquqlarını və imkanlarını təmin etməyə yönəlib. Bu siyasət daimi və dönməz səciyyə daşımaqla bütövlükdə qadınların cəmiyyətdə layiqli mövqeyini hər zaman qoruyub saxlamağa imkan verəcək. Bu əziz bayram münasibətilə bütün qadınlarımızı milli maraqlarımızın müdafiəsinə, dövlətçiliyimizin möhkəmləndirilməsinə və xüsusən, Azərbaycan qadınının mənəvi yüksəlişinə xidmət edən yorulmaz fəaliyyətlərində davamlı uğurlar arzusu ilə təbrik edirəm".

Nərgiz xanım Azərbaycan Ordusunda aparılan islahatlardan, ordumuzun inkişafından, daim artan güc və qüdrətindən böyük sevgi ilə danışdı. "Fəxr edirəm ki, oğlum Pərviz Məmmədzadə də belə güclü və qüdrətli bir ordunun əsgəri olub".

Nərgiz Məmmədovadan xoş təəssüratlarla ayrıldıq. Bir daha sevindik ki, kursantlarımıza - gələcəyimizin zabitlərinə onun kimi savadlı, bilikli və vətənpərvər müəllimlər dərs deyir, elm öyrədir. Müəllimləri bilikli, savadlı olan kursantlarımızı təbiidir ki, gələcəkdə böyük uğurlar gözləyir. Elm, bilik isə uğurlara yol açan qaranlıqları aydınlaşdıran gur işıqdır.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

---

Qadın dünyanın sevgi qaynağıdır. Bir ovuc qəlbində kainat boyda yük daşıyacaq qədər cəsur, saf məhəbbəti ilə buz ürəkləri əridəcək qədər mərhəmətlidir. Bəzən bahar mehi qədər xəfif, bəzən ləpələri sahilə çırpılan dəniz qədər təlatümlüdür.

Əsgər yeməkxanasında söhbətləşərkən baş aşpaz Diləfruz Tahirova bildirdi ki, 8 Mart Beynəlxalq Qadınlar Günü mənim üçün ən gözəl bayramlardan biridir. "Çünki qadın müqəddəs ana adının daşıyıcısı, ülvilik məbədidir, ucalıq rəmzidir. Mənə elə gəlir ki, hərbi hissələrimizdə xidmət edənlərin sayı qədər oğlum var. Bu bayramı bu qədər oğulun mənəvi anası olaraq qeyd etmək, onların təbrikini eşitmək qürurvericidir. Sevinirəm ki, əsgər övladlarımın sevgisini qazana bilmişəm. Oğullarımın hər yemək yeyəndən sonra "Əlləriniz var olsun, çox dadlı idi" kəlməsi mənim üçün ən dəyərli hədiyyədi. Bu əziz gündə mənim ən böyük arzum torpaqlarımızın işğaldan azad olunmasıdır, Vətənimizin səmasını aydın görməkdir. Kaş ki, xalqımız sonsuzadək xoşbəxt və firavan yaşasın".



Diləfruz xanım uşaqlıqdan milli xörəklərimizi çox sevib. Plovu xususilə xoşlayıb. Hər dəfə anası plov bişirərkən diqqətlə onu izləyər, bir gün bu ləzzətli təamı hazırlayıb sevdikləri ilə bölüşməyin xəyalını qurardı. Allah həyata keçirməyəcəyi arzunun xəyalını qurdurmazmış. Özünü bütün əsgərlərimizin mənəvi anası bilən Diləfruz xanım biri-birindən dadlı, ləzzətli xörəklər hazırlayır. Aşpaz xanım bu gün də əsgər balalarına plov hazırlayarkən zəfəran ətirli uşaqlığını xatırlayır. Vətənimizin keşiyini çəkənlərin qayğısına qalmağı özünə fəxr bilir.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

---

Tofiq Bayramın "Qadın ürəyi" şeirini xatırlayıram. Bu ürək sevgi beşiyidir, bu ürək Vətən üçün yaşayanların öyüd ünvanıdır, bu ürək dünyanın gözəlliklərini yaşadan, bu gözəlliklərə xor baxanlarla mübarizə aparanların uğur yolunu nurlandırır, ilkin yazda həzin-həzin əsən meh də, gül ləçəklərində dan yerinin qızartısını puçur-puçur alışan şeh də, yaz yağışından sonra gömgöy göy üzünə yayılan qövsi-qüzeh də bu ürəyə, bu ürəyin duyumuna, qıyımına borcludu...



Neçə on illər əvvəl bir mahnı dinləyərdik, düşünə-düşünə dinləyərdik - "Ananın səsi". Davadan söz düşəndə odlanan ana ürəyinin harayıydı o mahnı. Bəşəri sülhə çağırırdı. "Tökülən, axıdılan qanlar bəs deyilmi?" - sorğusuyla dinlənilirdi. Bəşərilik var bu mahnıda. Bu mahnını yazanlar - şair də, bəstəkar da azərbaycanlıdır. Deməli, bu dəyərli bəstə Azərbaycanın səsidir. Bəşərilik naminə harayı Vətənimizin harayı olan qadınların bayramıdı 8 mart. Beynəlxalq bayramdı. Görəsən, tökülən qanlara görə haray çəkən anaların səsini qan tökənlərin anaları eşidirmi? Eşitməyinə eşidir, bəs nə deyir qana həris oğluna?!

Gülgün Məmmədova hərbi qulluqçudur. O da bəşəri duyğularla yaşayır. O da hamımız kimi müharibənin qurtarması gününün intizarındadı. "Özümü müharibə aparanların, zabit və əsgərlərimizin sırasında görmək istəyirdim. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət edə biləcəyimi öyrənəndə, səmimiliyimə inanın, sinəm ürəyimə darlıq etdi. Nə gizlədim, iki damla yaş üzümdə közə döndü. İndi hərbi xidmətdəyəm. Rabitəçiyəm. İnanıram ki, 2016-cı ilin aprelində Böyük Qələbə qazanan Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edəcəkdir."

Çavuş Gülgün Məmmədova iki övlad anasıdır. "Biz anaların hər birinin övladlarının sayı əsgərlərimizin sayı qədərdi...", - çavuş Gülgün Məmmədova belə dedi. Onu 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edəndə "Diqqətinizə görə təşəkkür edirəm", - deyib gülümsündü. "Mən də öz növbəmdə ordumuzda xidmət edən bütün qadınları təbrik edirəm. Onlara Böyük Qələbənin sevincini böyük qürurla yaşamağı arzulayıram...".

Görüşəndə "Ananın səsi" mahnısını xatırlamışdıq. "Dünya xocalılı anaların səsini eşitmədi, eşitsəydi, bu faciəni törədənlər cəzalandırılardı..." - gileyi də ana tələbidi. Torpaqları işğal edilmiş ananın, soydaşları öldürülmüş ananın, Ali Baş Komandanın döyüş əmrini gözləyənləri özünə oğul bilən ananın...

Bayramınız mübarək, çavuş Məmmədova!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Hərbi qulluqçuların vətənpərvərlik tərbiyəsi və dövlət sirrinin qorunmasında şəxsi heyətin rolu

*Müasir qloballaşma dövründə gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə edilməsi dövlət, onun müvafiq orqanları, təşkilatları, rəhbər şəxsləri və hər bir Azərbaycan vətəndaşı qarşısında böyük məsuliyyət yaradır. Yüksək milli ruhun mövcudluğu ölkənin gücünün əsas meyarıdır. Ölkədə vətənpərvərlik ruhunun əsas daşıyıcısı və aparıcı qüvvəsi onun gəncləridir.*



Gənclər hər bir millətin inkişafının təməl daşıdır. Bu səbəbdən bir millətin mövcudluğu üçün sağlam gəncliyin olması vacib şərtdir. Çünki ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli kadrların hazırlanmasından, aparıcı qüvvəyə çevrilməsindən asılıdır. Bu baxımdan Azərbaycan Ordusunda gənclərlə iş sahəsində görülən tədbirlər cəmiyyətdə Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir.

Vətənpərvərlik hər kəsin doğulub boya-başa çatdığı elə, obaya, torpağa, vətəndaşı olduğu ölkəyə məhəbbətdən qaynaqlanır. Vətənpərvərlik həm də Vətən naminə çalışmaq, Vətəni xarici və daxili düşmənlərdən qorumağa hər an hazır olmaq, onun yolunda qəhrəmanlıqlar, fədakarlıqlar göstərmək, Vətənin, xalqın hər bir uğuruna sevinmək və Vətəni layiqli vətəndaş kimi təmsil etməkdir.

Hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən, milli ruhdan və digər amillərdən asılıdır. Azərbaycan gəncliyi bütün dövrlərdə ölkənin taleyüklü məsələlərinə münasibətdə, həlledici məqamlarda nəyə qadir olduğunu təsdiqləyib.

Azərbaycan gənc nəslinin nümayəndələri olan Azərbaycan Ordusunun əsgərləri həm də xalqın əsrlər boyu əldə edilmiş hərbi ənənələrini də, milli hərbi vətənpərvərlik ruhunu da hərbi kollektivlərdə yaşadır.

Azərbaycanda gənclər siyasətinin əsasında layiqli vətəndaş və sağlam nəslin formalaşdırılması dayanır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti də məhz bu amalın təsdiqidir. Ümummilli Lider müstəqil düşüncə tərzinə sahib vətənpərvər nəslin formalaşmasını qürur hissi ilə vurğulayaraq demişdir: "Məni hədsiz dərəcədə sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün xətalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var".

Vətənpərvərlik emosiya və hisslərlə bağlı olduğundan bu hisslərin tərbiyəsi hər bir dövlət üçün vacib məsələyə çevrilir. Müasir modernləşmə və qloballaşma şəraitində vətənpərvərlik hissinin fərqli xüsusiyyətləri meydana çıxır. Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərində vətənpərvərlik müəyyən mənada başqa mahiyyət daşıyırdı. O zaman Ümummilli Liderin iradəsi, həmçinin şəxsi vətənpərvərlik nümunəsi sayəsində vətəndaşları Vətəni və dövləti qorumaq ideyası ətrafında birləşdirmək zərurəti yarandığından ümummilli lider Heydər Əliyev tərəfindən 1993-cü ildə Azərbaycan xalqını vahid ideya ətrafında birləşdirə biləcək azərbaycançılıq məfkurəsi (ideologiyası) irəli sürüldü.

Azərbaycan Respublikasının ağır və təlatümlü dövründə azərbaycançılıq məfkurəsi (ideologiyası) o dövr üçün vətəndaşların fikir müxtəlifliyindən daha vacib idi. Nəticədə vətənpərvərlik hissinin yeni ideya ətrafında tərbiyə olunması məsələsi zərurətə çevrildi. Azərbaycanda yaşayan xalqları, etnik qrupları və müxtəlif dini etiqadlıları Azərbaycan xalqının vahid idealları ətrafında birləşdirən və Azərbaycan Respublikasının vətəndaşı kimi hamını ölkənin ərazi bütövlüyünün qorunmasına səfərbər edən bu ideologiya hər bir vətəndaşın ideologiyası oldu.

Bu gün fəxarətlə demək olar ki, Azərbaycan xalqını milli birliyə səsləyən azərbaycançılıq ideologiyası var və bu ideologiyanın əsasını Azərbaycan Respublikası vətəndaşlarının milli vətənpərvərliyi təşkil edir.

Hazırda Azərbaycan Ordusunda azərbaycançılıq ideologiyasının təşviqi və tətbiqi gənc hərbi qulluqçularda milli mənlik şüurunun inkişaf etdirilməsi və hərbi vətənpərvərlik hisslərinin artırılması istiqamətində bir sıra təşkilati tədbirlər həyata keçirilmiş, İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi tərəfindən "Azərbaycan Ordusunda azərbaycançılıq ideologiyasının təşviqi və tətbiqi haqqında Əsasnamə" və "Azərbaycan Ordusunda gənclərlə hərbi vətənpərvərlik işinin təşkil edilməsi haqqında" Təlimat hazırlanmışdır.

Azərbaycançılıq ideologiyasının təşviqi və tətbiqinin, həmçinin gənclərdə hərbi vətənpərvərlik işinin təşkil edilməsində respublikada gənclər təşkilatlarının rolunun danılmaz olduğunu nəzərə alaraq Azərbaycan Ordusu da belə gənclər təşkilatlarının birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil və tikinti müəssisələrində yaradılmasını qarşısında məqsəd qoyubdur. Azərbaycan Ordusunda Gənclər təşkilatını təmsil edən Gənclər Birliyinin yaradılması artıq günün tələbidir.

Azərbaycan Respublikasının müstəqilliyinin 28-ci ilinin dövlət quruculuğu yolunda gənclərin üzərinə böyük və məsuliyyətli vəzifələr düşür. Bu vəzifələri yalnız öz Vətənini sevən, onun tərəqqisinə çalışan və azadlığı uğrunda canını qurban verməyə hazır olan gənclər yerinə yetirə bilər.

"Dövlət sirri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə ciddi əməl etmək də əsl vətəndaşlıqdır.

Dövlət sirri təşkil edən hərbi sahəyə aid məlumatların kütləvi informasiya vasitələrində, internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə yayılması qəbuledilməzdir. Belə halların qarşısını almaq, təmas xəttinə bitişik ərazilərdə (cəbhəboyu zonada) təhlükəsizlik tədbirlərini gücləndirmək mühafizələrinə xüsusi əhəmiyyət kəsb edən obyektlərin və hərbi hissələrin yerləşmə yerləri, strateji, operativ və səfərbərlik üzrə yerləşdirilməsi, hərbi hissələrin təşkilati strukturu, şəxsi heyətin sayı barədə məlumatların məxfi saxlanılması dövlət əhəmiyyətli bir məsələdir.

Hazırda informasiyanın toplanması, saxlanması, emalı və ötürülməsi proseslərinin smart əl telefonlarından və ya internetdən istifadə etməklə həyata keçirilməsi imkanı konfidensial (gizli) informasiyanın asanlıqla düşmənin əlinə keçməsi təhlükəsini artırır. İnformasiya təhlükəsizliyinin təmin edilməsinin əsas şərtlərindən biri informasiyanın konfidensiallığının (gizliliyinin) təmin edilməsi məsələsidir. İnformasiya resurslarından istifadə edən hər bir hərbi qulluqçu hissə və bölmələrə aid olan informasiyanın konfidensiallığını (gizliliyini) qorumaq üçün məsuliyyətlərini dərk etməli, bu hallara yol verənlərə qarşı amansız olmalı və öz vətəndaşlıq mövqelərini ortaya qoymalıdırlar.

Dövlət sirrinin mühafizəsi hərbi hissə komandirlərinin, qərargah rəislərinin, idarə və müəssisə rəhbərlərinin əsas fəaliyyət istiqamətlərindən biridir və dövlət sirri təşkil edən məlumatların mühafizəsinin təşkilinə görə məsuliyyət onların üzərinə qoyulur. Bu səbəbdən də hərbi hissə komandirləri, qərargah rəisləri, idarə və müəssisə rəhbərləri dövlət sirrinin mühafizəsi sisteminin səmərəliliyini artırmalı, dövlət sirrinin mühafizəsinin dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğunluğunu öyrənməli və təhlil etməli, dövlət sirri təşkil edən məlumatların mümkün axın (kənara sızma) kanallarını müəyyənləşdirib müvafiq tədbirlər hayata keçirməlidirlər.

Həmçinin hərbi hissə komandirləri, qərargah rəisləri, idarə və müəssisə rəhbərləri hərbi hissələrdə keçirilən açıq tədbirlər və kütləvi informasiya vasitələri üçün hazırlanan materialların qabaqcadan Müdafiə Nazirliyinin Mətbuat Xidməti ilə razılaşdırılmasını təşkil etməlidirlər.

Dövlətin təhlükəsizliyinin təmin olunmasında onun hər bir vətəndaşının rolu vacibdir.

Ona görə də Azərbaycan Respublikasının hər bir vətəndaşının, əsasən də cəbhəboyu zonada yaşayan vətəndaşların dövlət sirri təşkil edən məlumatları yayan, eləcə də dövlət sirri təşkil edən məlumatları xarici dövlətə, xarici təşkilata və ya onların nümayəndələrinə verən, yaxud vermək məqsədi ilə oğurlayan, toplayan və ya saxlayan şəxslər barədə yaxınlıqdakı hərbi hissələrə, yerli hüquq mühafizə orqanlarına və təhlükəsizlik orqanına məlumat vermək müqəddəs borcudur.

Vətəndaşlıq hisslərinin daha da gücləndirilməsi sahəsində məqsədyönlü və sistemli iş aparılmalıdır. Vətənə məhəbbət hissi gənclərin dövlət dilinə, milli musiqiyə, folklora, mənsub olduğu dini dəyərlərə, tarixi ənənələrə bağlılığında, ölkə ərazisinin bütövlüyünün qorunmasına hazır olduğunu əməli işlə sübut etməyində öz təzahürünü tapmalıdır.

Vətənin ərazi bütövlüyünün təmin olunması və torpaqlarımızın düşmən işğalından azad edilməsi naminə çalışmaq üçün gənc hərbi qulluqçuların müəyyən hərbi ixtisasa sahib olması, dövlət quruculuğunda fəal iştirak etməsi, yüksək peşəkarlığa, hərbi təhsilə və elmə yiyələnməsi, geniş dünyagörüşünə malik olması, hərbi xidmətdə yoldaşlarına nümunə olması və Vətənin keşikçisi adını uca tutması çox vacibdir. Vətəni sevmək, onun ərazi bütövlüyünü, maddi və mənəvi sərvətlərini düşmənlərdən qorumaq, iqtisadi və hərbi qüdrətinin yüksəlməsinə nail olmaq, baş verə biləcək düşmən təxribatlarının qarşını almaq hər bir Azərbaycan vətəndaşı kimi hamının müqəddəs borcudur.

Son vaxtlar orduya göstərilən qayğı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Silahlı Qüvvələrlə bağlı verdiyi sərəncam və fərmanlar, əsgər və zabitlərimizə göstərdiyi diqqət gənc hərbi qulluqçularda vətənpərvərlik hisslərinin artmasına son dərəcə müsbət təsir göstərir. Buna əyani olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 13 fevral 2019-cu ildə Beyləqan rayonu ərazisində yeni inşa edilmiş hərbi hissədə hərbi hissənin şəxsi heyəti üçün sosial-yaşayış və hərbi xidməti ilə əlaqədar yaradılmış şəraitə yüksək qiymət verməsini misal gətirmək olar.

Son illər şəxsən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən hərbi qulluqçuların sosial-məişət və yaşayış şəraitlərinin yaxşılaşdırılması məqsədi ilə sistemli tədbirlər yüksək templə həyata keçirilməkdə davam etdirilir.

Azərbaycan Ordusunun gündən-günə güclənməsi, yeni müasir silahlarla təchiz edilməsi, qoşun, birlik və birləşmələrin keçirilən hərbi təlimlərdə yüksək döyüş hazırlığı göstərməsi, ölkəmizin hərbi qüdrətinin dünyada artması və Qarabağ probleminin həlli məsələsində təşəbbüsü ələ alması Ermənistanı və onun havadarlarını daha çox narahat etməyə başlamışdır.

Ordunun döyüş və mənəvi-psixoloji hazırlığı, xalq və ordu vəhdəti işğal altında olan torpaqlarımızın azad olmasına yaxınlaşdırır. Azərbaycan Ordusunun gücünü onun xalqına, dövlətinə sədaqəti və Vətəninə sevgisi təşkil edir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Ordu və cəmiyyət

# “Hərbçilərimizin uğuru, qələbəsi naminə bacarıq və imkanlarımızı əsirgəmirik”

*Xalqımızın 8 Mart Beynəlxalq Qadınlar Gününü rəğbətlə qarşılaması Azərbaycan qadınının özünü cəmiyyətdə təsdiqinin sübutudur. Tarix boyu Azərbaycan qadını daim yüksək mənəvi ideyaların, nəcib, xeyirxah təşəbbüslərin tərəfdarı kimi çıxış edib, böyük hörmət və ehtiramla əhatələnib.*



Həyatın bütün sahələrində həmişə fəal olan qadınlarımızın arasında görkəmli dövlət, elm, mədəniyyət və ictimai-siyasi xadimlər də var. Respublikamız müstəqillik qazandıqdan sonra qadınların cəmiyyətdə rolu daha da yüksəlib, fəaliyyətləri genişlənib. Qadınların cəmiyyətdəki roluna hər zaman müstəsna əhəmiyyət verən ümummilli liderimiz Heydər Əliyev onların fəaliyyətini çox yüksək qiymətləndirərək deyirdi: "Qadın bəşərə yaraşıq, zinət, insanlığa şərəf, şan-şöhrətdir. Qadın ucalıq, ülvilik məbədidir, ismət, qeyrət, qüdrət rəmzidir".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uğurla davam etdirdiyi dövlət siyasətinin məntiqi nəticəsidir ki, bu gün qadınlarımız təkcə respublikamızda deyil, dünya miqyasında da kifayət qədər yaxşı tanınır, beynəlxalq qurumlarda ölkəmizi layiqincə təmsil edirlər. Dövlətçiliyimizin bütün sahələrində dəyərli xidmətləri ilə böyük uğurlar qazanırlar. Azərbaycan Ordusunda çalışan qadınlarımız da Vətənə layiqli xidmət edirlər.

Azərbaycan qadınına xas xüsusiyyətləri özündə cəmləşdirən, vətənpərvər, mərd, işgüzar, fədakar, böyük hörmətə və sevgiyə layiq olan əsl vətəndaşlardan biri də 25 ildən artıqdır ki, ordu həmkarlarında uğurlu fəaliyyət göstərən, Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşovadır. Abiyat xanım ölkəmizin ictimai-siyasi həyatında göstərdiyi xidmətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Tərəqqi" və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının "Həmkarlar ittifaqlarında xidmətlərinə görə" medalı ilə təltif olunub.

Hərbi qulluqçuların, bu sıradan əsgərlərin də yaxın dostu, dəyər verdiyi xeyirxah insan olan A.Ağadadaşova BHİK-in işinin yüksək səviyyədə təşkili ilə yanaşı, tez-tez hərbi hissələrə gedir, daim ordumuzun yanında olur, cəbhə bölgələrinə yollanaraq zabit və əsgərlərlə görüşür. Xüsusi günlərdə, bayramlarda hər zaman Vətən müdafiəçiləri ilə yan-yana olur, səmimi söhbətlər edir, mənəvi dəstəklərini onlardan heç vaxt əsirgəmir.

"Birləşmiş Həmkarlar İttifaqı Komitəsi kimi həmişə ordumuzun yanında olacağıq", - deyən Abiyat xanımın qəzetimizə verdiyi müsahibəsindən bir hissəni xatırlayırıq:

"Biz özümüzü ordumuzdan kənarda təsəvvür etmirik, təkcə ona görə yox ki, ordu həmkarlarını təmsil edirik. Həm də ona görə ki, hər bir kəs vətəndaş olaraq Azərbaycanın tərəqqisi naminə əlindən gələni etməlidir, dövlətçiliyimizin keşiyində dayanan hərbçilərimizin uğuru, qələbəsi naminə bacarıq və imkanını əsirgəməməlidir. Azərbaycan zabitinə, əsgərinə həmişə dayaq olmağı, onlarla görüşə getməyi, mənəvi dəstək olmağı özümüzə insanlıq, vətəndaşlıq borcu bilirik."

Abiyat xanımın nümunəvi fəaliyyəti, ürəkaçan sözləri, ordu mənsubları arasında qazandığı hörməti, onun zəngin mənəviyyatının, dövlətçiliyimizə bağlılığının, vətənpərvərliyinin, zərifliyinin göstəricisidir. Həmçinin onun da sübutudur ki, Azərbaycan qadını ailəyə bağlılığı, xoş rəftarı, səmimiyyəti ilə yanaşı, ictimai-siyasi işlərdə də kişilərlə çiyin-çiyinə dövlətimizə layiqincə xidmət edir. Onlar ailənin sədaqətli qoruyucuları olmaqla yanaşı, eyni zamanda cəmiyyətin əsas dayaqlarından da biridir.

Kollektivimiz adından Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Abiyat Ağadadaşovanı və komitənin qadın işçilərini 8 Mart Beynəlxalq Qadınlar Günü münasibəti ilə təbrik edir, cansağlığı, uzun ömür, ailə səadəti, şərəfli vəzifələrində yeni-yeni uğurlar arzulayırıq.

İnanırıq ki, “Hərbçilərimizin uğuru, qələbəsi naminə bacarıq və imkanlarımızı əsirgəmirik”, - deyən azərbaycançılıq ideologiyasını fəaliyyətinin əsası bilən Abiyat Ağadadaşova hələ uzun illər əsgər və zabitlərimizin yaxın dostu kimi seviləcəkdir.

**"Azərbaycan Ordusu"**



## NATO-nun təlim qrupu tərəfindən seminar keçirilir

Azərbaycan Hərbi Hava Qüvvələrinin NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Ortaq Qüvvələr Birliyinə bəyan edilən Mi-17 helikopter cütlüyünün 1-ci səviyyəli NATO (NEL-1) qiymətləndirilməsinə hazırlıq məqsədilə Bakıda "Helikopterlərin iştirakı ilə hava əməliyyatları" mövzusunda seminar keçirilir.

NATO-nun mobil təlim qrupu tərəfindən keçirilən və martın 8-dək davam edəcək seminarda müxtəlif mövzularda brifinqlər təqdim ediləcək.

Hərbi texnikalar, silahlar

## “Vaşaq” snayper tüfəngi

ADEX-2018 sərgisində Müdafiə Sənayesi Nazirliyinin mühəndisləri tərəfindən yaradılmış silahların təqdimatı həyata keçirilib. Bu silahlar arasında yenilənmiş "Vaşaq" snayper tüfəngi də nümayiş etdirilib.



İlk dəfə ADEX-2016 sərgisində birkalibrli silah olaraq təqdim edilən "Vaşaq" snayper tüfəngi ordu və güc strukturları ilə birlikdə sınaqları keçirildikdən sonra onun layihəsi üzərində işlər aparılmış və bir kalibrdə - 338 Laqua Maqnum (8,6x70 mm) nümayiş etdirilib. Verilən məlumata görə, "Vaşaq" snayper tüfəngində yalnız 338 LM patronlarından istifadə ediləcək. Silahın üzərində bir çox dəyişikliklər edilib. Onun lüləsi dəyişdirilib, çəkisi azaldılıb. Tüfəngin ön hissəsində möhkəm dayanıqlı ayaq, qundağın alt hissəsində atəşi tənzimləmək üçün dayaqla təchiz edilib. "Vaşaq" snayper tüfəngi beş patronlu daraqla təchiz edilib. Silahın atış məsafəsi 1200 metr, güllənin ilkin sürəti saniyədə 890 metr təşkil edir. Açıq halda qundaqla birlikdə tüfəngin uzunluğu 1300 mm, yığılı halda isə 1100 mm, lüləsinin uzunluğu 660 mm, çəkisi isə 7,8 kiloqramdır. "Vaşaq"ın lüləsinin atış resursu 4000 atəşdən çoxdur. Silah mənfi 30 dərəcə, müsbət 65 dərəcə temperaturlarda istifadə oluna bilər.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Hərbi Dəniz Qüvvələrinin gəmiləri Novorossiysk hərbi dəniz bazasına daxil olublar



Türkiyə Hərbi Dəniz Qüvvələrinə məxsus iki gəmi Novorossiysk hərbi dəniz bazasına daxil olub.

Bu barədə jurnalistlərə Qara dəniz Donanmasının mətbuat xidmətindən məlumat verilib.

"Burqazada" adlı ən müasir korvet və "Akçay" mina-tral gəmisi Türkiyə Hərbi Dəniz Qüvvələrinin komandanlığı tərəfindən həyata keçirilən "Qolubaya otçizna-2019" hərbi dəniz təlimləri çərçivəsində Novorossiysk limanına daxil olub. Donanmada daha sonra bildiriblər ki, şəhər administrasiyasının nümayəndələri və Novorossiysk bazasının komandiri Türkiyə gəmilərinə baş çəkməyi planlaşdırırlar. Türkiyə gəmiləri bu bazada martın 8-dək qalacaq.

## İsveç Silahlı Qüvvələrinin kateri hərbi təlimlər zamanı saya oturub



İsveç Silahlı Qüvvələrinin kateri hərbi təlimlər zamanı saya oturub. Nəticədə yeddi hərbi qulluqçu yaralanıb.

Hadisə Stokholm arxipelaqı rayonunda baş verib.

Müxtəlif dərəcəli xəsarətlər almış hərbi qulluqçular qayıqla sahilə çıxarılıb, burada onları təcili tibbi yardım maşınları qarşılayıb. Ciddi xəsarət almış iki hərbi qulluqçu hərbi helikopterlə yaxınlıqdakı xəstəxanaya çatdırılıb. Yerli KİV-lərin verdiyi məlumata görə, hadisə baş verərkən qayıqda olmuş 18 hərbi qulluqçudan 11-i xəsarət almayıb.

İsveç Silahlı Qüvvələrində bu hadisə ilə əlaqədar təhqiqat başlanıb. Hərbi katerin saya oturmasının səbəbi hələ göstərilmir.

## Rusiyada ilk özəl kosmodrom tikiləcək



Nijeqorod vilayəti və "Kosmokurs" kompaniyası Rusiyada ilk özəl kosmodromun tikintisi barədə müqavilə imzalayıb.

Bu barədə region hökumətinin mətbuat xidməti məlumat yayıb. Həmin kosmodromdan suborbital turist raketlərinin fəzaya buraxılacağı planlaşdırılır. Uçuşlar təxminən 15 dəqiqə davam edəcək. Turistlər həmin vaxtın demək olar ki, 30 faizini çəkisizlik şəraitində keçirəcək. Biletin qiymətinin 200-250 min dollar olacağı gözlənilir.

"Kosmokurs" kosmik fəaliyyət üçün artıq "Roskosmos"dan lisenziya alıb. Kompaniya 200 kilometr hündürlüyə uçuş həyata keçirmək üçün birpilləli geri qayıdan raketdən və 7 yerlik kosmik gəmidən istifadə edəcək. İlk kosmik səyahətin 2025-ci ildə baş tutacağı gözlənilir. Layihəyə 2,6 milyard rubl həcmində şəxsi investisiya qoyulacağı, raketin yanacağının ekoloji təmiz komponentlərdən ibarət olacağı bildirilir. Hazırda kompleksin inşası üçün torpaq sahəsi seçilir. Kosmodromun tikiləcəyi yer kimi Tatarıstan variantı da nəzərdən keçirilir.

## Aİ komissarı Paşinyanı Gürcüstanın baş naziri ilə səhv salıb



Avropa Qonşuluq Siyasəti və Genişlənmə Danışıqları üzrə Avropa İttifaqının (Aİ) komissarı Yohannes Han Brüsseldə səfərdə olmuş Ermənistanın baş naziri Nikol Paşinyan ilə Gürcüstan hökumətinin rəhbəri Mamuka Baxtadzeni səhv salıb.

Yohannes Han erməni baş naziri səfəri ilə bağlı özünün "Twitter" səhifəsində yazdığı statusda Cənubi Qafqazın iki hökumət rəhbərini dəyişik salan fotoşəkillər paylaşıb. Onun bu səhvi qısa müddətdə düzəldilsə də, sosial şəbəkə istifadəçiləri bu statusun surətini çıxara biliblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Novruz bayramı ərəfəsində hərbi hissədə tədbir keçirilib



2019-cu ilin fəaliyyət planına əsasən, Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdə Novruz bayramı tədbirlərinə start verilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş bölgəsində yerləşən hərbi hissələrdən birində Müdafiə Nazirliyi və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə tədbir keçirilib.

Təntənəli mərasimdə çıxış edənlər xalqımızın əziz bayramı olan Novruz ənənələrinin qorunması və yaşamasının xalqımızın və dövlətimizin milli-mənəvi dəyərlərə verdiyi ən yüksək qiymətin bariz nümunəsi olduğunu xüsusi vurğulayıblar.



Tədbir Universitetinin Musiqi sənəti fakültəsinin müəllim və tələbə heyətinin hərbi qulluqçular qarşısında konsert proqramı ilə davam edib.

# “Döyüş hazırlığında idmanın xüsusi yeri var”

Yazıma "İdman sağlamlığın rəhnidir", "Sağlam bədəndə sağlam ruh olar" kimi fikirlərlə başlamaq, demək olar ki, söhbətimizin hansı mövzuda aparılacağını öncədən xəbər verir. Təbii ki, söhbət idmandan gedir. Ölkəmizdə bu sahənin inkişafına daim önəm verən, ona diqqət və qayğısını əsirgəməyən xalqımızın ümummilli lideri Heydər Əliyev idmanın sağlamlıqda rolunu ifadə edərək demişdir: "İdmanla məşğul olan hər bir şəxs özünün fiziki sağlamlığını təmin edir, həm də ki, cəmiyyətdə idmanın və bədən tərbiyəsinin insan üçün nə qədər lazımlı olduğunu sübut edir."

Bu gün ordumuzun şəxsi heyətinin döyüş qabiliyyətinin artırılmasında və fiziki təminatında idmanın rolu çox böyükdür. Belə ki, hərbi hissələrimiz ən müasir idman avadanlıqları ilə təchiz olunur və şəxsi heyətin istifadəsinə verilir.

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində idman şəhərciyi, eyni zamanda axşam fiziki hazırlıq saatında şəxsi heyətin məşq etməsi üçün ayrılan idman zalı lazımi avadanlıqlarla təmin olunub. Hərbi hissədə olarkən şəxsi heyətin digər hazırlıqları ilə yanaşı, fiziki hazırlığı ilə də maraqlanırıq. Öyrənirik ki, şəxsi heyətin axşam fiziki hazırlıq saatı artıq başlayıb. Zalda yerləşdirilmiş müasir idman qurğuları diqqətimizi çəkir. Şəxsi heyət verilən tapşırıqları məharətlə, yorulmadan yerinə yetirir, cəld, çevik hərəkətlərlə idman vərdişlərinə yiyələnir. Məşğələ rəhbəri gizir Ruslan Şahbazov xidmətin uğurlu aparılmasında idmanın önəmliliyini vurğulayaraq bildirdi ki, fiziki hazırlığı məqbul olmayan, yetərli idman vərdişlərini mənimsəməyən əsgər təlim meydanında döyüş tapşırıqlarını yerinə yetirən zaman bir sıra çətinliklərlə qarşılaşmalı olur. "Ümumiyyətlə, fiziki cəhətdən möhkəm olan əsgər yüksək döyüş hazırlığına malikdir. Şəxsi heyətin daim fiziki hazırlığının artırılmasına xüsusi diqqət yetirilir. Əsgərlər məşğələ prosesində tələb olunan normativləri yerinə yetirməyə çalışır, turnikdə dartınır, paralel qollarda güclərini sınayırlar. Onu da qeyd edim ki, fiziki cəhətdən hazırlıqlı əsgərlərimiz çoxdur. Onlar orduda keçirilən müxtəlif növ idman yarışlarında fəal iştirak edirlər. Bu baxımdan, "Sağlam bədəndə sağlam ruh olar" və "İdman sağlamlığın



rəhnidir" kimi devizlər də təsadüfi səslənməyib."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Xəyyam Cəfərov ötən il orduda keçirilən cüdo üzrə yarışlarda 3-cü yeri qazandığını dedi: "Döyüş hazırlığında idmanın xüsusi yeri var. Bu gün hərbi hissələrimizdə ən müasir idman şəhərcikləri salınır. Şəxsi heyət bu müasir idman qurğularında fiziki hazırlığını artırmaq imkanı əldə edə bilir. Əsgərlərimiz döyüş və mənəvi-psixoloji hazırlıqlarını artırmaqla yanaşı, fiziki hazırlıqlarını da daim artırırlar. Hazırlıqlı əsgər fiziki cəhətdən də möhkəm olmalıdır."

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Zabit Muradov məşq edən əsgərlərin hamısının fiziki cəhətdən hazırlıqlı olduğunu dedi: "Mən özüm də idmanın güləş növü ilə məşğulam, bir neçə yarışda qalib olmuşam. Vaxtilə regionlararası turnirlərdə birincilik qazanmışam. İdman sahəsində əldə etdiyim bilik və bacarığımı böyük həvəslə şəxsi heyətə aşılayıram. Onları yarışlarda qalib olmağa hazırlayıram."

Əsgər İlqar Nəbiyev də peşəkar idmançıdır. O, dəfələrlə güləş üzrə respublika birincisi olub. İlqar dedi ki, bölmələrində idmançı uşaqlar çoxdur. Onlar həm təlim-məşq toplanışında, həm də hərbi dərslərdə fəallıq göstərirlər.

Son vaxtlar idmana göstərilən diqqət və qayğı öz bəhrəsini verməkdədir. Şəxsi heyətin idman hazırlığının daha yüksək səviyyədə olduğunu bu gün qətiyyətlə demək mümkündür. Fiziki hazırlığı və döyüş ruhu yüksək olan şəxsi heyətin qələbə əzmi də güclü olur.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**R.ƏMRAHOVUNDUR**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi qulluqçularına göstərilən tibb xidmətinin aşağı səviyyədə olması ilə bağlı Müdafiə Nazirliyinə yüzlərlə şikayət daxil olur.

Tiqran Qazaryan adlı hərbi qulluqçu vəziyyəti pisləşdiyi üçün hərbi hospitala yerləşdirilib. Lakin burada həkimlər tərəfindən lazımi diqqət göstərilmədiyindən onun səhhətində heç bir irəliləyiş yoxdur. Bu barədə Ermənistan Müdafiə Nazirliyinə şikayət edən əsgərin valideynləri bildiriblər.

Hərbi qulluqçu T.Qazaryanın valideynlərinin şikayət etdiyi ortaya çıxdıqdan sonra hospitalın rəisi Azaryan əl ayağa düşüb və əsgərin müalicəsi ilə bağlı tapşırıqlar verib.

Komandanlıq isə əsgər valideynlərinin şikayətlərini geri götürmələri üçün canfəşanlıq edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində komandirlərin tabelikdə olan şəxsi heyətə qarşı yol verdiyi təhqir və təzyiqlər səbəbindən baş verən cinayət hadisələrinin sayı çoxalmaqdadır.

Bu günlərdə erməni zabit gənc əsgərlərlə keçirdiyi məşğələ zamanı söyüşlərə və təhqiramiz ifadələrə yol verib.

Münaqişə nəticəsində leytenant Edvard Mkrtçyanın təhqirlərinə dözməyən əsgər Vahen Martirosyan zabitə dəbilqə ilə zərbələr endirib. Halı pisləşən zabit hərbi hospitala yerləşdirilib.

Fakt ictimaiyyətdən gizlədilsə də, hüquq-mühafizə orqanları tərəfindən araşdırma aparılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər nəticəsində baş verən cinayətlər üzündən qalmaqallar səngimək bilmir.

Bu günlərdə beşinci dağatıcı alayında xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülən əsgər Tavşyanın cinsi zorakılığa da məruz qaldığı iddia edilir. Bu barədə əsgərin yaxınları tərəfindən prokurorluğa yazılan şikayət ərizəsində bildirilir. Hərbi prokurorluq zabit Ardak Xaçatryandan hadisə ilə bağlı rəsmi məktub tələb edib.

Hərbi hissə komandanlığı hər vəclə hadisənin mənfi təsirini yüngülləşdirmək məqsədilə cinsi zorakılığı ört-basdır etməyə çalışsa da, artıq Karlen Babayan və Navik Melyan adlı hərbçilərin istintaqa cəlb edildiyi məlum olub.

Faktla bağlı araşdırma davam edir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində gənc əsgərlərin döyülməsi adi hala çevrilib. Maraqlısı odur ki, erməni zabitlər düşmən ordusunu bürüyən bu bəla ilə mübarizə apara bilmirlər.

Ağdərə ərazisində düşmən ordusunun dördüncü taborunda xidmət edən əsgər Sevak Qazaryanın başına gələnlər prokurorluqla hərbi hissə komandanlığı arasında ciddi qalmaqala səbəb olub. Belə ki, diviziya komandiri S.Qazaryanın xidmətdən yayınmaq məqsədilə özünə xətər yetirməsini iddia etsə də, prokurorluğun təyin etdiyi tibbi ekspertiza əsgərin ən azı 3 nəfər tərəfindən döyüldüyünü sübut edib.

Faktla bağlı açılan cinayət işinin istintaqı davam edir.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 242
Nüsxə 3950